# ÇOXTƏYİNLİ SOYADIN VƏ ADIN DAŞIYICISI



**_Yusif YUSİFOV,
Azərbaycan dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının dosenti, ümumi dilçilik ixtisası üzrə professor_**

Nəzirli Şəmistan soyadını, adını dəyərləndirən sözlər və söz birləşmələri yetərincədir. Həmin dil vahidləri bunlardır: publisist, yazıçı, jurnalistər, Yazıçılar Birliyinin üzvü, Həsən bəy Zərdabi adına mükafatın laureatı, polkovnik-leytenant və s.

Görkəmli publisist-araşdırıcı Şəmistan Nəzirli zəhmətlə dolu, özəl və dəyərli bir yaradıcılıq yolu keçmiş ədəbi şəxsiyyətdir. O, 1996-cı ildən bu günədək yazıb yaratmaqdadır.

Talantlı publisisit-yazıçı və alimin biblоqrafiyasını gözdən keçirəndə heyrətlənir, ayrı-ayrı mövzularda yaratdığı rəngarəng, çoxsaylı, publisist, bədii, eləcə də yüksək elmi, akademik üslubda işıq üzü görmüş müxtəlif adlı yaradıcılıq örnəkləri, axtarışları ilə yaxından tanış olduqda onun fitri istedadına, çəkdiyi böyük zəhmətə heyran qalırsan. Əməkdar mədəniyyət işçisi Almaz Əliyevanın çox böyük zəhmətlə yaratdığı Şəmistan Nəzirli bibloqrafiya (2014-192 səh.) dəyərli qaynaqdır. Şəmistan Nəzirlinin böyükhəcimli kitablarının sayına, çap olunduğu illərin yaxınlığına baxdıqda bir-birindən məzmun və formaca seçilən, bəddi, elmi üslüblarda qələmə aldığı yazılı mətinləri oxuyanda haqqında danışdığımız yaradıcı şəxsiyyətin ağlasığmaz dərəcədə söz əzabının daşıyıcısı olduğunu görürük.

Azərbaycan Milli Kitabxanasının hazırladığı həmin vəsait Şəmistan Nəzirli haqqında hazırlanmış bu ilk bibloqrafik göstəricidə onun çoxcəhətli yaradıcılığı, haqqında olan ədəbiyyatı əks etdirən materiallar verilmişdir. Bibloqrafiyanı olduğu kimi təkrarlamağa ehtiyac yoxdur. Çünki göstərilən 192 səhifəlik qaynağı Azərbaycan Milli Kitabxanası 2014-cü ildə çapdan çıxarmışdır. Bibloqrafiya ümumxalq məhəbbəti qazanmış yüksək talantlı publisist, yazıçı və zəhmətlə dolu böyük yaradıcılıq yolu keçmiş araşdırıcı alimin dolğun, geniş əməyinin uğurlu göstəricisidir. Bu yüksək keyfiyyət və yetərli kəmiyyət göstəriciləri oxucularda heyrət doğurur, həm də yaradıcı şəxsiyətin yaradıcılığının ümumi mənzərəsi haqqında dolğun, aydın anlayış formalaşdırır.

Görkəmli publisist, nasir Şəmistan Nəzirlinin 1978-ci ildən Azərbaycan Jurnalistlər, 1985-ci ildən Yazıçılar Birliyinin üzvü seçilməsi Həsən bəy Zərdabi adına mükafatın laureatı (2002) olması maraq doğurur. Bibloqrafiya böyük zəhmət və ardıcıl axtarışların uğurlu nəticəsi kimi diqqəti çəkir. Tanınmış ədəbi şəxsiyyətin həm məzmun, həm də formaca çağdaş tələblərə yetərincə cavab verən yaradıcılıq örnəkləri 1966-cı ildən 2013-cü ilədək keçən zamanı özündə birləşdirir. Əslində araşdırıcı publisit və yazıçının bibloqrafiyasına düşməyən xeyli əsərlərin olmasına şübhə yoxdur. Həm də oxucuların yaxşı tanıdığı Şəmistan Nəzirlinin həyat və yaradıcılığının bu göstəricisi bir neçə il öncə işıq üzü görməli idi.

Görkəmli Şəxsiyyətlər xalq şairi Mirvarid Dilbazinin, xalq yazıçısı İsmayıl Şıxlının, xalq yazıçısı Qılman İlkinin, general-leytenant Çingiz Məmmədovun, akademik İsa Həbibbəlinin, professor Minaxanım Təkləlinin, şair-publisit Davud Nəsibin, Sabir Azərinin. Əmir Mustafayevin, BDU-nun jurnalistika fakültəsinin dekanı Mahmud Mahmudovun, professor Teymur Əhmədovun, əməkdar mədəniyət işçisi Aybəniz Vəkilovanın, professor Tofiq Rüstəmovun, professor Vaqif Arzumanlının, professor Xeyrulla Məmmədovun və başqa tanınmış şəxsiyyətlərin Şəmistan Nəzirli haqqında xoş, səmimi sözləri verilmişdir. Şəmistan Nəzirlinin əsərləri oxucuların diqqətinə yönəldərkən onun bibloqrafiyasını olduğu kimi verməyi lazım bilmədim. Çünki həmin qaynaq tərtib edilərək oxuculara çatdırılmışdır. Buna görə də onu təkrarlamağa ehtiyac yoxdur. Bibloqrafiya hamıda olmadığı üçün görkəmli şəxsin çoxcəhətli yaradıcılığını oxuculara yığcam şəkildə çatdırmaq məqsədilə həmin mənbədən istifadə etdik.

Şəmistan Nəzirlinin böyük zəhmətlə yazdığı dəyərli yaradıcılıq örnəkləri bunlardır.

1. *"Vurğun keçib bu yerlərdən (mətn)" (Səmədli hekayələr) Bakı:Gənclik,1978-kitab 1-1208*
2. *"Qəribə talelər" Bakı:Gənclik,1982-888*
3. *"Vurğun ömrü (mətn)" Bakı:Azərnəşr,1987-1068*
4. *"Vurğun keçib bu yerlərdən (mətn)" Bakı:1986-kitab 2-1688*
5. *"Əfsanəvi Mixaylo (mətn)" Bakı:-Gənclik,1988-868,*
6. *"Azərbaycan Generalları" Bakı:-Gənclik,1991-2088,*
7. *"Qoridən gələn qatar" Bakı:Azərnəşr,1998-2068,*
8. *"Cümhuriyyət generalları" Bakı-:Hərbi nəşriyyat,1995, 2118*
9. *"Qaçaqlar" Bakı: "Şur" 1995, 648*
10. *"Yaddaşlarda yaşayan vurğun" Bakı:Şərq-Qərb, 1996, 2908*
11. *"Daş Salahlı Məmməd Koxa" Bakı:Şirvannəşr,1997, 2488*
12. *"Tam artilleriya generalı Səməd bəy Mehmandarov" Bakı: Hərbi nəşriyyat, 1997, 1178*
13. *"Qaraxanlı Əşrəf bəy" Bakı:Elm və həyat,1998-1808*
14. *"Arxivlərin sirri açılır" Bakı-:Elm,1999-4148*
15. *"Nəsirli ocağının üç şairi" Bakı: "AME" NPM,2002-2478,*
16. *"Topoqraf-general İbrahim ağa Vəkilov" Bakı: Zaman,2002-293*
17. *"General Yadigarov qardaşları" Bakı:Şirvannəşr,2004-328*
18. *"General Əlağa Şıxlınski ömrü" Bakı:Uğur,2005-2488,*
19. *"Kırım dəftəri" Bakı:Şirvannəşr, 2005-328*
20. *"Güllələnmiş Azərbaycan Generalları" Bakı:Kooperasiya,2006-6248*
21. *"Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov" Bakı 2007, 408*
22. *"1920-ci ildə Qarabağ döyüşləri" Bakı:Şərq-Qərb,2011-4928*
23. *"General Əliağa Şıxlınski və silahdaşları" Hərb tarixindən araşdırmalar, Bakı:Şərq-Qərb, 2012-4948*
24. *"Beş günlük qonaq" Bakı:Oka-Ofset, 2013-4648*

Şəmistan Nəzirli bibloqrafiyasını (Bakı:2014-1928) olduğu kimi təkrarlamağı lazım bilmədik. Görkəmli publisistin, yazıçının yaradıcılığı haqqında yığcam, həm də dolğun anlayış yaratmaq üçün onun bibloqrafiyasından müəyyən qədər istifadə etməyi məqsədəuyğun saydıq.

Zəhmətsevər və məhsuldar yazıçının kitabları haqqında bilgi verdik. Onun ön söz yazdığı, tərtibşisi, redaktoru və tərcüməçisi olduğu kitabların və dövri mətbuatda dərc edilmiş məqalələrinin sayı 1083-ə çatır. Şəmistan Nəzirlinin yardıcılıq axtarışlarının sayı ilə bağlı açıqlamalarımızın hər biri oxucuda onun yaradıcılığının ümumi görünüşü haqqında yetərli anlam yaranmasına inanırıq. Yazıçı-araşdırıcının adları ardıcıllıqla sıralanan yaradıcılıq örnəklərinin hər birinin özəyində elmiliklə bədiiliyin qırılmaz, sıx birliyi vardır. Bu özəllik araşdırmanın həyat həqiqətlərini yüksək yaradıcılıq fantaziyası fonunda göstərə, vеrə bilmək bacarığının aydın örnəyi adlandırılmalıdır. Şəmistan Nəzirlinin müxtəlif ədəbi növ və janırlarda yazdığı yaradıcılıq axtarışlarında elmi, bədii, publi-



sistik üslubların qovuşduğunu görmək mümükündür. Buna elmi, bədii və publisistik düşüncəli yazarların özəl yaradıcılıq yolu demək olar. Bütün araşdırıcılar yox, onların müəyyən qrupu göstərilən müsbət yaradıcılıq özəyinin daşıyıcısı sayıla bilər. Həmin qrup araşdırıcılar dolğun, yüksək, elmi-nəzəri bilikləri, güclü fitri istedadları ilə başqalarından fərqlənirlər. Şəmistan Nəzirli göstərilən qrup araşdırıcıların prooobrazıdır. O, müsbət mənəvi-əxlaqi keyfiyyətləri ilə diqqəti çəkən ziyalıdır. Şəmistan Nəzirli qibtə ediləcək dərəcədə zəhmətsevərliyi ilə ucalmış, oxucuların, dostlarının məhəbbətini, sevgisini qazanmışdır.

Dolğun diplomatik həyat məktəbi keçmiş, ən öncə humanist ziyalı kimi tanınan, yüksək səviyyəli, təşkilatçılıq, idarəetmə bacarığı ilə şöhrət qazanmış, çağdaş zamanda tədris və elmi sahədə qazandığı uğurları ilə dünyada yaxşı tanınan ADA-nın rektoru, geniş bilikli, eləcə də fitri istedadlı fizik alim Hafiz Paşayev müsbət mənəvi əxlaqi keyfiyyətlərin daşıyıcısıdır. Onun Şəmistan Nəzirliyə səmimi münasibətinə ötəri baxılmamalıdır. Ziyalı alim Hafiz Paşayevin atası Mir Cəlal müəllim Azərbaycan xalqının yaddaşında böyük tarixi, ədəbi şəxsiyyət, böyük yazıçı, talantlı alim, humanist insan kimi qalmışdır. Mir Cəlal müəllim həmişə yaxşı tələbələrə köməklik göstərmişdir. Onların, arzularına, istəklərinə, qovuşmasında önəmli xidmətləri, etdiyi yaxşılıqlar ona əbədi yaşamaq hüququ qazandırmışdır. Hidayətin "Mir Cəlal dünyasından sətirlər" adlı xatirə essesində ədəbiyyatşünaslığın dolğunlaşmasında əvəzedilməz xidmətlər göstərən musiqili, həzin ruhlu Azərbaycan nəşr öndərlərinin yaradıcısı sayılan ziyalı- yazıçı ilə bağlı dəyərli sözlər yazılmışdır. Belə yazıçılara tanışlıq onun kimi talantlıların, xeyirxahların dünyaya barmaqla sayılacaq dərəcədə az-az gəldikləri, xalqın, onları tanıyanların, ürəyində, yaddaşında əbədi yaşaya bildikləri faktlarla təsdiqlənir. Göstərilən qaynaqda istedadlı şairimiz Nəriman Həsənzadənin akademik, tanınmış fizik alim Arif Mir Cəlal oğlu Paşayevə ünvanladığı yazı (məktub) epistolyar janrın ən yaxşı örnəklərindən hesab edilən "Mir Cəlalın şah əsəri və qəhrəmanı" yazısı çox maraqla oxunur. 30 yanvar 2016-cı il tarixli "Azərbaycan müəllimi" qəzetində müsahibə başlığı altında "Mir Cəlal Paşayev oğluna aldığı evi mənə verdi" adlı yazıda xalq şairi, Prezident təqaüdçüsü Nəriman Həsənzadənin Azərbaycan xalqının sevimli yazıçısı, görkəmli pedaqoq, əməkdar elm xadimi Mir Cəlal Paşayevlə bağlı xatirələri yazılmışdır: "Mir Cəlal Paşayevi yaxından tanıyan, şanslı aspirantlardan biri idim"

Bir gün şəhərdə Mir Cəlal müəllimlə rastlaşdığını söyləyən Nəriman Həsənzadə: "Nə axtarırsan?" - deyə bir ata qayğısı ilə soruşdu.

- İş axtarıram, Mir Cəlal müəllim, - deyə mənə olan bu mərhəm münasibətindən ürəklənib, özümü onun oğlu, kimi hiss edərək cavab verdim."İş axtarma, adam axtar. Adam da mən".

- Gəl universitetə, aspiranturaya.

Getdim. Mir Cəlal müəllim mənim tale yolumu belə təyin etdi, o yol isə məni ucaltdı. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı oldum və onun elmi rəhbərliyi altında "Azərbaycan-Ukrayna" 0ədəbi əlaqələri mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görüldüm. Mir Cəlal müəllim mənim universitetdə qalıb işləməyimə də kömək etdi. Əvvəllər saat hesabı universitetdə işləməyə başladım. Bir müddətdən sonra Azərbaycan ədəbiyyatı tarixi kafedrasına bir müəllim yeri verildi. Mir Cəlal müəllim o yeri mənə ayırdıqlarını dedi. Sənədlərimi hazırlayıb gətirməyimi tapşırdı. Mir Cəlal müəllim umiversitetdə ştatda işləməyim üçün o vaxt universitetin rektoru Faiq Bağırzadəyə müraciət etmişdir. O da hörmətli alimin və yazıçının sözünü yerə salmamışdır. Mən söz versəm də, müsabiqədə iştirak etməkdən imtina etdim. Həmin vaxtlar iri bir əsər üzərində işləməyim buna səbəb olmuşdur. Tanınmış ziyalı, alim Hafiz Paşayevin diplomatik təlim işinə keçməsi şəxsi təşəbbüsü ilə Azərbaycan diplomatik Akademiyanın bünövrəsinin qoyulmasından daha əvvəl başladığı müəyyənləşdirilmişdir. Onun Xarici İşlər Nazirliyində ölkənin diplomatik xidmət göstərilməsi işini həyata keçirən, gerçəkləşdirən qurumun ağsaqqalı təyin edilməsi razılıqla qarşılanmış və bəyənilmişdir. Hafiz Paşayev Azərbaycanın Amerika kimi super dövlətində səfir olanda diplomatik fəaliyyət dairəsinin genişliyi ilə diqqət çəkmişdir. Azərbaycanlı gənclərin Amerikada vaxtaşırı bir yerə toplaması, ardıcıllıqla hesabatların dinlənməsi bununla bağlı onlara diplomatik düşüncələrini çatdırması və məsləhətlərin verilməsi Azərbaycandan gələnlərlə görüşlər, qarşıya qoyulan vəzifələrlə bağlı yığıncaqlar keçirmək sonda səfirin öz qərarlarını, təlimatlarını verməsi, müzakirələrdə ayrıntılara onun hər bir gəncə qayğısının, diqqətinin unudulmazlığının diqqətə yönəldilməsi, rəsmi səlahiyyət sahibinin ciddi olduğu qədər də mehribanlığı, qayğıkeşliyi, ən başlıca məsələlərin gərgin şəraitdə keçən müzakirələrində belə əsəbləşməsinin gözə dəyməməsi, ancaq çiyinlərində hansı strateji məsuliyyət yükü olduğunu "Yeni Azərbaycan" (2021-30 aprel,-3) yaxşı bildiyi danılmaz həqiqət idi.

*(Davamı var)*